## COP29 günlərində enerji təchizatının dayanıqlığı üçün əks-qəza məşqləri keçirilib

COP29 tədbirinin, o cümlədən Bakı şəhərinin fasiləsiz və dayanıqlı elektrik təchizatının təmin edilməsi üçün kompleks qabaqlayıcı tədbirlər həyata keçirilir. Bu tədbirlərin tərkib hissəsi olaraq hava durumu və digər fövqəladə şərait səbəbindən enerjisistemdə baş verə biləcək qəza hallarında operativ personalın hərəkəti, qəzanın aradan qaldırılması, işlərin qüsursuz təşkilinin simulyasiyası üçün əməliyyat heyətlərinin iştirakı ilə regional əks-qəza məşqləri keçirilib.

“AzərEnerji” ASC-dən AZƏRTAC-a bildirilib ki, əməliyyat heyətinin bilik və vərdişlərinin artırılması, həmçinin “AzərEnerji” və “Azərişıq” ASC-lərin mərkəzi dispetçer idarəetməsi arasında koordinasiyanın gücləndirilməsi üçün keçirilən regional əks-qəza məşqində, əsasən şərti olaraq Bakı şəhərinin ötürücü şəbəkə infrastrukturunu enerjisistemlə əlaqələndirən 220 kilovoltluq elektrik verilişi xətləri açılarsa, alternativ sxem yığılaraq ən qısa zamanda şəhərin elektrik enerjisi ilə təchizatının bərpa edilməsi simulyasiya edilib.

Əks-qəza məşqinə “AzərEnerji” və “Azərişıq” ASC-lərin mərkəzi dispetçer xidmətlərinin, eyni zamanda, ötürücü və paylayıcı müəssisələrin əməliyyat heyəti cəlb edilib.

Mərkəz olaraq “AzərEnerji”nin 220 kilovoltluq “Nizami” yarımstansiyası seçilən əks-qəza məşqi noyabrın 11-24-də Bakı şəhərində keçiriləcək COP29 tədbirlərinə elektroenergetika infrastrukturunun hazırlıq səviyyəsini yüksəltmək, əməliyyat personalının praktik vərdişlərini artırmaq məqsədi daşıyır.

**AZƏRTAC**
**2024, 5 noyabr**